**İQTİSADİ ELMLƏR**

**UOT 338.48**

# AZƏRBAYCAN RESPUBLIKASINDA TURİZM ÜZRƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN STRATEJİ İSTİQAMƏTLƏRİ VƏ DAVAMLI İNKİŞAFDA ROLU

**Ülviyyə ŞİRİNOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 5 iyul 2022; çapa qəbul edilmişdir: 20 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022

Received: 5th of Jule, 2022; accepted: 20th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *sahibkarlıq, strateji, davamlı inkişaf, turizm*

## Giriş

Müasir dövrümüzdə şirkət strategiyası ilə bağlı alimlər arasında konsensus yoxdur. Müxtəlif konseptual təriflərdə o, fəaliyyət planı, məqsədə çatmaq yolları, istiqamət, inkişaf istiqaməti, strateji qərarların qəbulu üçün bütöv və ya prosedur kimi qəbul edilir. Eyni zamanda tədqiqatçıların bəziləri eyni zamanda onların bir-birini tamamladığını iddia edirlər. Məsələn, R.Winsley qeyd edir ki, strategiya mütləq açıq deyil. Strateji marketinq üzrə digər tanınmış ekspert C.Dayın fikrinə görə, strategiya çox çevik anlayışdır və onun ilkin mənası demək olar ki, itirilmişdir.

M.Meskon strategiyanı daha konkret müəyyənləşdirərək onu təşkilatın öz missiyasını həyata keçirməsi və məqsədlərinə çatması üçün nəzərdə tutulmuş hərtərəfli və əhatəli plan olaraq təqdim edir. Strateji idarəetmənin tanınmış ekspertlər A.Striklend və A.Tompsonun fikrincə, strategiya şirkət resurslarının əlaqələndirilməsi və bölüşdürülməsi yolu ilə məqsədlərə nail olmaq üçün tələb olunan ümumiləşdirilmiş fəaliyyət modelidir. Başqa bir tanınmış alim F.Vebster isə strategiya yüksək rəqabət şəraitində məhdud resurslardan istifadə etməklə məqsədlərə nail olmaq planıdır fikrini söyləmişdr.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra sahibkarlıq fəaliyyətinin strateji aspektlərinin müəyyənləşdirilməsi mühüm prioritet kimi müəyyən edilmiş və bu sahədə ümummilli lider Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin prezident kimi ölkəyə rəhbərlik etdiyi dövrdə mühüm addımlar atılmışdır.

Azərbaycanda biznes strateji aspektlərini müəyyənləşdirən Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" (06.12.2016) sənədinin ən önəmli bölməsindən biri "Strateji icmal"dır ki, 2025-ci ilə qədər ölkədə müasir texnologiyalara, bazar və maliyyə resurslarına bərabərhüquqlu çıxış imkanı olan rəqabət mühitinin yaradılması qeyd edilmişdir. Yerli turizm şirkətlərin canlanması, xarici investorların əlverişli çalışmasına şərait yaradacaq biznes mühiti yaradılmalıdır. Xarici investisiyalar nəticəsində Azərbaycan iqtisadiyyatı xaricdən gələn şoklara daha davamlı olacaq, həmçinin ölkə əmək məhsuldarlığının Şərqi Avropa

* *Bakı Avrasiya Universiteti*
e-mail: ulviya.şirinova@gmail.com
orcid ID: 0000-0003-3514-8825

ölkələri səviyyəsinə çatacağı proqnozlaşdırılır.

Qələbə ilə başa çatan 44 günlük müharibədən sonra imzalanan digər vacib sənəd Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri" (02.02.2021) rəsmi sənədidir.

Beləliklə, Azərbaycanda sahibkarlığın strateji inkişafı göz qabağındadır və ölkə sahibkarlığın inkişafı üçün daha hansı addımlar atılmalıdır?

Sahibkarlıq fəaliyyəti cəmiyyətdə fəaliyyət göstərə bilən hər bir fərdin şəxsi gəlirinin və əldə edilməsinə yönəlmiş, fərqli risk dərəcəsinə malik, hüquqi məsuliyyət ilə həyata keçirilən müstəqil iqtisadi fəaliyyətdir. Bazarda əsas hərəkətverici qüvvə olan sahibkar iqtisadi mahiyyətinə görə mənfəət əldə etmək istəyərək eyni zamanda şəxsi mənafeyini güdən şəxsdir. Sahibkarlar öz məqsədləri üçün çalışmaqla yanaşı, cəmiyyətə gərəkli xidmətləri ilə seçilirlər. Onlar istehsal və sahibkarlıq obyektləri yaradır, ölkə iqtisadiyyatını canlandırır, cəmiyyət üzvlərinin məhsul və xidmətlərə olan tələbatını ödəyir, onları işlə təmin edir, gəlirlərindən istifadə edirlər.

Ölkə Prezidentinin "Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sənədi ölkədə normativ-hüquqi bazanın mütərəqqiliyi, sahibkarlığın inkişafı və biznes mühitinin yaradılması üçün sistemli şəkildə tədbirlər həyata keçirilmişdir. Sahibkarların elektron qeydiyyatı, xarici ticarət əməliyyatları, korporativ idarəetmənin təkmilləşdirilməsi, investor maraqlarının müdafiəsi və müflisləşmə ilə bağlı ölkə qanunvericilikdə müəyyən dəyişikliklər edilib. Sahibkarlıq fəaliyyətinin inkişafı üçün qəbul edilmiş "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanun qəbul edilib, regionlarda sahibkarlığın inkişafı dövlət nəzarətindədir və bu sahədə mühüm işlər görülür.

**Ölkəmizin turizm sahəsində perspektivləri**

Yüksək gəlir mənbəyi olan turizm xidmətləri hər zaman diqqət tələb edir və bu sahənin istehlakçı istəklərinə uyğunlaşmanı vacib edir. Bunu üçün turizm məhsulunun inkişafının fərdi təşəbbüslərini dəstəklənmək, yerli, regional, dünya səviyyəsində əlverişli koordinasiyanın qurulması vacibdir. Əsas diqqətin istehlakçı tələbinə yönəldilməsi, məhsulun inkişafında regional hədəflərin gücləndirilməsi, cəlbedici turizm məhsullarının bir-biri ilə əlaqələndirilməsi diqqətə alınmalıdır. Çünki ölkəmizin turizm üzrə böyük potensialı vardır və onun reallaşdırılması üçün həm dövlət, həm də də özəl sektorun davamlı dəstəyi vacibdir.

Mədəni turizm bir turizm növü olaraq regionların mədəni iris ilə yanaşı yerli əhalinin həyat tərzi, tarixi, mədəniyyəti, memarlığı, din və s. sahələri əhatə edən turizm növü olub, şəhər və kənd yerlərində tarixi məkanlara, qoruqlara, abidələrə, muzeylərə, qədim və yeni memarlıq nümunələrinə, yerli festivallara və bayramlara ziyarəti nəzərdə tutan turizm növüdür. Bu məqsədilə turistlər yerli turistlərlə müqayisədə vəsaitlərinin çox hissəsini xidmətlərə xərcləyirlər.

Digər turizm növü olan tarixi marşrutlar (Böyük İpək Yolu) bu turizmin bir hissəsi olmaqla müxtəlif əraziləri əhatə etməklə yanaşı dünyada daha yaxşı qəbul olunur və bu bizə Azərbaycan Respublikası ölkə potensial turizm məhsulu kimi qəbul edilə biləcəyinə inam yaratmağa əsas verir.

Sağlamlıq turizminə diqqət yetirsək, görərik ki, ənənəvi müalicə üsulları ilə yanaşı müasir müalicə imkanları kimi ölkədə isti və mineral bulaqların sayı minlərlədir. İstisu, Turşsu, Badamlı, Qalaaltı, Şıxburnu, Suraxanı suları ən tanınmış müalicəvi su mənbələrindən olub, mühüm kurort resurslarından biri də Naftalan neftidir. Naxçıvan Muxtar Respublikasında yerləşən nadir duz dağı da çox məşhurdur.

Respublikasının dağlıq ərazilərində turizmdən istifadə imkanları mövcud olduğu üçün dağ və qış turizm növləri ölkədə ən perspektivli turizm sahələrindəndir. Müasir tipli

"Şahdağ" Turizm Mərkəzi QSC və "Tufandağ" qış-yay turizm istirahət kompleksi istirahət zonaları bu gün çox məşhurdur.

Bu gün Azərbaycanda sürətlə inkişaf edən sahələrdən biri də idmandır. Son illərdə idman infrastrukturunun inkişafına böyük həcmli maliyyə vəsaiti qoyularaq nəinki Bakıda, digər şəhər və rayonlarda da olimpiya kompleksləri istifadəyə verilmişdir.

İşgüzar turizm ölkəmizdə ən geniş yayılmış turizm növlərindən biridir, bunun üçün ölkə ərazisində mövcud mehmanxana imkanlarından istifadə edilir, ancaq ölkənin konqres və mədəniyyət mərkəzləri bu cür tədbirlərin təşkili məqsədilə geniş istifadə edilə bilər.

Ölkənin zəngin flora və faunası ilə böyük ekoturizm potensialına malik olmasını nəzərə alaraq açıq təbiətə turist gəzintiləri və ekskursiyalar təşkil oluna bilər.

Azərbaycanın əsas turizm bazarı imkanlarına nəzər salsaq görərik ki, hər bir ölkədən turistlər qəbul edirik. Ölkə turizm prioritetlərinin beş əsas mənbəyi:

- Ölkəmiz (yerli turistlər);
- Qonşu Türkiyə, İran Respublikası, Gürcüstan və Rusiya;
- Fars körfəzi regionu ölkələri;
- Müstəqil Dövlətlər Birliyinə üzv ölkələr (MDB);
- Kütləvi turizm ölkələri.

Azərbaycan bu gün əsas turizm mərkəzlərindən biri olmaqla, Gürcüstan və Türkiyənin başlıca rəqiblərindəndir. Diqqət etsək, görərik ki, Gürcüstan Respublikasından qonşu Türkiyəyə turist sayı Gürcüstandan Azərbaycana gələn turistlərin sayından 3 dəfə, İranın Türkiyəni seçən turistlərin sayı İrandan Azərbaycana gələn turistlərin sayından 10 dəfə çoxdur.

Turizm sektorunda araşdırmalar göstərir ki, bu sahə üzrə kiçik, orta və iri müəssisələrin vahid meyarı yoxdur və onların təşkilati, hüquqi, sosial, iqtisadi, demoqrafik tərəflərini əhatə edən keyfiyyət xüsusiyyətlərini konkretləşdirmək kifayət qədər vaciv olduğu qədər mürəkkəb məsələdir.

Turizmdə sahibkarlığında sosial-iqtisadi risklər mövcuddur:

- ölkə rəqabət qabiliyyətinin aşağı səviyyəsi;
- investisiya cəlbediciliyinin zəif olması;
- adambaşına milli gəlirin azalması;
- inflyasiya səviyyəsi;
- sosial maddi təminatın zəif olması;
- əhali arasında ölüm və xəstələnmə hallarının artımı;
- demoqrafik vəziyyətin kəskin pisləşməsi;
- əhalinin təhsil səviyyəsinin günün tələblərinə cavab verməməsi;
- ölkə geosiyasi rolunun dəyişməsi;
- yerli beynəlxalq münaqişələr.

Turizm sahibkarlıq subyektlərinin rentabello olmasını təmin etmək məqsədilə təşviqedici tədbirlər həyata keçirmək, dövlət güzəştli kreditlərlə təminat səviyyəsini yüksəltmək lazımdır. Daxili turizm bazarını əsassız rəqabətdən qorunması üçün antidempinq siyasəti həyata keçirməklə, dövlət özünün tənzimləyici funksiyasını yerinə yetirə bilər. Bu sahədə çalışan işçilərin sayı, peşə hazırlığı, kapitalın dəyəri, əsas fondlar, qoyulmuş kapitalın həcmi, rəqabətə qabiliyyəti və s. göstəricilər proqnozlaşdırılmalıdır. Rast gəlinən çətinliklər arasında start (ilkin) kapitalının azlığı, iri şirkətlər tərəfindən görülən yüksək rəqabət, yeni açılanların qeydiyyat çətinliyi, sahibkarın mühasibat hesabdarlığı ilə bağlı problemlər mövcuddur.

Mövcud əmək ehtiyatlarının 50%-nin regionlarda yerləşməsi, dağ turizminə yararlığı, təbii coğrafi mühit və regionların sosial-iqtisadi inkişaf proqramı çərçivəsində strateji məqsədlərin mövcudluğu, turizmin inkişafı, sahibkarlıq növü olaraq əsas sahəyə çevrilməsinə şərait yaradır.

Azərbaycanda turizm sahəsi üzrə islahatlarının xarakteri, özəl sektorun inkişaf meylləri, bələdiyyələrin statusunun müəyyən edilməsi, torpaqla bağlı xüsusi mülkiyyətin qərarlaşması, əhalinin məşğulluq səviyyəsinin mövcud reallıqları, işsizlik amilləri kənd turizminin inkişafını zəruri edir. Turizm müəssisə və təşkilatlarında mənfəət mübarizəsi hər bir sahibkarın başlıca məqsədidir. Odur ki, bazar konyunkturasının vaxtaşırı dəyişməsi sahibkardan yenilik və ixtiraçılıq, əqli çeviklik, hadisələrə qarşı həssaslıq, manevr etmə qabiliyyəti, inam kimi xüsusiyyətlər tələb edir, çünki hər konkret situasiyanı tez, yubatmadan öyrənməli, təhlil etməli və qərar qəbul etməli, eyni zamanda bu işə yaradıcı yanaşmalıdır.

Qürurla qeyd edə bilərik ki, ölkəmiz İlham Əliyev başda olmaqla 30 ilə yaxın düşmən tapdağında olan torpaqlarımızı 2020-ci ildə Vətən müharibəsi nəticəsində azad edib. Bu o deməkdir ki, ölkə iqtisadi problemləri öz həllini tapacaqdır. Təbii ki, burada turizm sahibkarlığının da rolu artacaq. Biz işğaldan azad edilmiş torpaqlarda turizm sahibkarlığının strateji inkişafını xüsusi qeyd etməliyik. Gözəl diyarımızın gözəl təbiəti bunun üçün hər cür şəraiti yaradır, sahibkarlığın müxtəlif sahələrini inkişaf etdirmək olar. İşğaldan azad edilmiş torpaqların keyfiyyəti, gözəl iqlimi və tarix və mədəniyyət abidələri, turizm imkanları, kənd təsərrüfatının zənginliyini vurğulamalıyıq.

Turizm sahəsindəki mövcud potensialı qiymətləndirmək bu gün vacib şərtlərdəndir. 44 günlük müharibədən sonra işğaldan azad edilmiş ərazilərdə müalicəvi təbii suların mövcudluğu ərazinin müalicəvi turizm baxımından böyük imkanlara malik olmasından xəbər verir, digər tərəfdən dünyanın ən qədim insan məskəni olan Azıx mağarası işğaldan azad edilmiş ərazilərin turizm baxımından cəlbediciliyini artırır. Mütəxəssislərə görə, azad olunmuş bölgələrin bu potensialı doğru idarə və təşkil edilsə, burada tibbi turizm, tarixi və istirahət turizmi üçün də unikal imkanlar yaranacaqdır. Bu bölgənin turizm gəlirinin bu vaxta qədər bütün ölkənin turizm gəlirindən çox ola biləcəyi 1,5 milyard dollar həcmində proqnozlaşdırılır. Artıq Türkiyəli sahibkarlar bu bölgəyə maraq göstərdiklərini bildiriblər.

Bu ərazilərimiz ölkə əhalisi üçün böyük əhəmiyyət kəsb edir, çünki daxili turizmin inkişafına səbəb ola bilər. Bu gün daxili turizm sahəsində məhdud imkanlar qiymətlə və keyfiyyətlə rəqabətə şərait yaratmır və daha yüksək qiymətə baxmayaraq aşağı səviyyəli xidmətə gətirib çıxarır ki. Daxili turizmin inkişafını əngəlləyir, insanlar seçimi daha çox xarici ölkələrə olur. Bizim fikrimizcə, işğaldan azad edilmiş ərazilərdə müasir turizm infrastrukturunun qurulması eyni zamanda ölkədaxili turizmin imkanları genişləndirə bilər.

Ölkə xaricində işğaldan azad edilmiş ərazilərin turizm imkanlarının təbliği məqsədi ilə 2021 ci ilin dekabr ayının 9-10-da Azərbaycan Turizm Bürosu (ATB) Cənubi Asiya ölkələrinin qoşulduğu "Travel Meet Asia 2020" və Özbəkistanın turizm şirkətlərinin iştirak etdiyi "Tour Expo Tourism Fair" adlı onlayn görüşdə bu imkanları təbliğ edilib. Dubayda keçirilən "Gulf Travel Show" sərgisində Qarabağ bölgəsinin turizm potensialının bölgənin yeni turizm destinasiyaları sırasına daxil ediləcəyi barədə məlumat verilib.

Son dövrdə turizm sektorunun inkişafı ölkə iqtisadi islahatların əsas istiqamətlərindən biri olduğu üçün Prezidentin "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi" (06.12.2016), "Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi" (01.09.2016), "ASAN Viza" sisteminin yaradılması haqqında" (20.02.2017 ) "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamlar ölkə qeyri-neft sektorunun mühüm sahələrindən biri kimi turizmin inkişafına əhəmiyyətli təsir göstərir.

Turizm internet səhifəsi məlumatlarına görə xarici turistlərin daha çox seçdikləri turizm məkanlarının 75% məhz Bakıda yerləşir, Naftalan Kurort Mərkəzi Rusiya, Qazaxıstan və MDB ölkə turistləri üçün nadir sağlamlıq turizm məkanıdır.

Qafqazdan keçməklə Avropa və Asiyanı qitəsini birləşdirən ticarət marşrut şəbəkəsi

"Böyük İpək Yolu" mədəni turizm marşrutu turistləri üçün cəlbedicidir. Maraq sahəsi müxtəlif olan turistlər üçün "Aleksandr Düma Qafqazda", "Azərbaycanda Şərab Yolu", "Azərbaycanda alman izləri", "Azərbaycanda polyak izləri", "Babaların tarixi zəfər və şəhadət yolu" kimi mədəni turizm marşrutları nəzərdə tutulmuşdur.

Bu gün dünya turizmində kənd turizmi, yaşıl turizm özünəməxsus yer tutur. Bunun üçün "Kənd yaşıl turizminin inkişafına dəstək" İB yaradılacaqdır.

Son 5 ilin statistik göstəricilərinə əsaslanaraq deyə bilərik ki, Azərbaycan turizm sektoru sahibkarlıq subyektləri üzrə 4,5%, xarici turistlərin sayında isə 8,5% orta illik sabit artım müşahidə edilmişdir. Ölkə ÜDM-ində, məşğulluqda turizmin birbaşa payı hal-hazırda müvafiq olaraq 4,5 və 3,3% təşkil edir.

Bütün bu irəliləyişlər ölkəmizdə turizm sahibkarlığın inkişafının əsasını qoydu və sahibkarlığın inkişafının strateji istiqamətlərinin düzgün yolda olduğunu bir daha sübut etdi.

**Nəticə**

Qonşu ölkələrdən daha çox turist cəlb edərək ixtisaslaşmış turizm ölkəsinə çevrilmək respublikamızın hər iki sahə üzrə üstünlüyünü artıra bilər. Nəticədə mövcud imkan və potensialdan səmərəli istifadə edən ölkəmiz region və dünya ölkələri arasında 2025-ci ilədək ən cəlbedici turizm məkanlarından birinə çevriləcək. Bu sektor üzrə uzunmüddətli perspektiv əldə etmək üçün 2020-ci ilədək ölkə üzrə dörd əsas hədəf müəyyənləşdirilmişdir.

Onlardan birincisi, paytaxt Bakının turizm potensialından tam şəkildə istifadə edilməsidir.

İkinci hədəf keyfiyyətli idarəetmənin təşkilidir, eyni zamanda mövcud turizm zonalarının inkişafı, turizm mövsümilik xarakterinin ləğvi, infrastrukturunun inkişafı, viza prosesinin sadələşdirilməsi, sektorun sürətli inkişafı üçün əlverişli biznes mühitin formalaşdırılmasıdır.

Üçüncü hədəf regionlarda turizm təşəbbüslərini inkişaf etdirmək, sağlamlıq, qış və ekoturizm kimi yeni turizm növlərinin inkişafına investisiya qoyuluşlarını həyata keçirməkdir.

Dördüncü hədəf, turizm üzrə müasir təhsil və təlim proqramlarına investisiya qoyuluşunu həyata keçirməkdir. Turist məmnuniyyətinə nail olmaq, standartlaşdırma və sertifikatlaşdırma sistemini təkmilləşdirmək, pasportlaşdırma günün tələblərindəndir.

Davamlı inkişaf yolunda yuxarıda sadalanan məqsədlərə çatmaq üçün respublikamızın kifayət qədər potensialı mövcuddur, ölkə turizm siyasəti kompleks xarakter daşıyır və xidmət səviyyəsi getdikcə yüksəlir, həyata keçirilən davamlı tədbirlər isə bu sahə üzrə mühüm nailiyyətlərin qazanılmasına imkan yaradacaqdır.

Turizm sahibkarları üçün turizm xidmətlər bazarına çıxış imkanları genişləndirilməlidir:

1.Sahibkarları dəstəkləmək, girov təminatı üçün vasitələrin sayının mövcudluğu, müvəkkil banklardan manatla alınacaq kreditlər üzrə təminat;

2.Sahibkarlıq üzrə mükəmməl məlumat bazasının yaradılması;

3.Sahibkarların zəmanət və subsidiyalar üzrə müraciət imkanlarının genişləndirilməsi;

4.Turizm xidmət proseslərinin tam avtomatlaşdırılması;

5.Sənəd dövriyyəsinin tam rəqəmləşdirilməsi;

6.Turizm obyektlərində idarəetmənin təkmilləşdirilməsi, milli və beynəlxalq idarəetmə standartlarına uyğunluq;

7.Kreditorların real sektorun kreditləşdirilməsinə marağının artırılması, bununla bağlı risklərin minimuma endirilməsi;

8.Turizm startapların yaradılmasına həvəsləndirmək, müvafiq qurumlarla əməkdaşlıq etmək;

9.Məsləhət və məlumat xidmətlərinin göstərilməsi.

Yaxın dövr üçün turizm biznes mühitinin yaxşılaşdırılması üçün bir sıra məsələlər üzrə strateji yanaşmaların təmin edilməsi zəruridir:

-Strateji Yol Xəritəsi strateji məqsədləri əsasında biznes mühitinin təkmilləşdirilməsi üzrə daha təkmil mexanizmlərin işlənib hazırlanması və tətbiqinin təminatı;

-Sahibkarlığın inkişafı prosesində kiçik və orta sahibkarlığın iqtisadi fəallığını artırılması tədbirlər həyata keçirilməlidir.

Hesab edirik ki, yuxarıda qeyd edilən məsələlərin kompleks həlli ölkə turizm sahibkarlığın inkişafında biznes mühitinin yaxşılaşdırılması üzrə problemlərin optimal həllində strateji əhəmiyyət kəsb edə bilər.

## ƏDƏBİYYAT


1. “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi”, AR Prezidentinin 06 .12. 2016-cı il tarixli Fərmanı, Bakı şəhəri.
2. “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafın milli prioritetləri”, AR Prezidentinin 02.02.2021-ci il tarixli Sərəncamı, Bakı şəhəri.
3. Ağakərimov İ., Babazadə S. Ekskursiya və ekskursiya rəhbəri, Bakı: ADPU nəşriyyatı 2006, 52 s.
4. Turizm haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı: Qanun nəşriyyatı, 27.12.21.
5. Bilalov B. Turizmin menecmenti, Bakı: Mütərcim nəşriyyatı, 2005, 224 s.
6. Bilalov B. Turizm fəaliyyətinin tənzimlənməsi, Bakı: Mütərcim nəşriyyatı, 2006,140 s.
7. Əlirzayev Ə., Aslanova S. Turizmin inkişafının sosial-iqtisadi problemləri, Bakı: Adiloğlu nəşriyyatı, 2006, 164 s.
8. Rəhimov S. Turizm-ekskursiya işinin təşkili, Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, 2010, 154 s.
9. https://www.stat.gov.az/source/demoqraphy
   http://abad.gov.az/about



***Summary***

***Ulviyya Shirinova***

***Strategic Directions of Entrepreneurial Activity on Tourism in the Republic of Azerbaijan and the Role in Sustainable Development***

The continuous development of the country's entrepreneurship, while playing an indispensable role in achieving economic success and high growth rates in industrial production, ensures the development of promising new industries, as well as "removes" old products. Any state takes important steps for its sustainable development, among which are the strategic aspects of business development.

Entrepreneurship in tourism is the initiative activity of property-owning subjects, as a result of which, on the basis of personal profit and public benefit, commercial and other successes are achieved through the new use of money and other resources of ownership, it is a huge industry that includes various forms of entrepreneurship.

The development of tourism in the regions is determined by the efficient operation of the main forms of entrepreneurial activity, the organization of workplaces and the infrastructure sphere created. The development dynamics of foreign and joint ventures is reflected in the development of tourism, the field structure in tourism entrepreneurship is determined by the demand system of the tourism product in the tourism market. As a result, the demand system incorporates areas of greater social importance, based on export-oriented local resources.

The main goal of writing the article is to analyze the current state of entrepreneurship in the field of tourism in the modern era, state support for this field, ways to overcome existing problems. Relations in

the field of determining the development strategy of entrepreneurship in the new economic conditions, the share of the non-oil sector in the GDP of the recent period, the number of tourism enterprises and structural dynamics, a number of important factors were analyzed, along with the ways of forming and further improving the competitive environment in entrepreneurship, the possibilities of use were investigated, strategic aspects were determined and the ways of future development were indicated.

***Keywords:*** *entrepreneurship, strategy, sustainable development, tourism*

***Резюме***

***Ульвия Ширинова***

***Стратегические направления предпринимательской деятельности по туризму в Азербайджанской Республике и роль в устойчивом развитии***

Бурное развитие предпринимательства в нашей стране играет незаменимую роль в достижении экономических успехов и высоких темпов роста промышленного производства, обеспечивает развитие новых перспективных отраслей, одновременно «снимая» старую продукцию. Любое государство делает важные шаги для своего устойчивого развития, и среди них стратегические аспекты развития бизнеса. Наша страна, которая неоднократно доказывала, что не отстает от развитых стран в предпринимательстве, сделала и делает большие дела в этой области.

Предпринимательство в туризме - это инициативная деятельность субъектов-собственников, в результате которой на основе личной выгоды и общественной пользы достигаются коммерческие и иные успехи за счет нового использования денег и других ресурсов собственности, это огромная промышленность, включающая различные формы предпринимательства.

Развитие туризма в регионах определяется эффективной работой основных форм предпринимательской деятельности, организацией рабочих мест и созданной инфраструктурной сферой. Динамика развития иностранных и совместных предприятий отражается на развитии туризма, отраслевая структура в туристском предпринимательстве определяется системой спроса туристского продукта на рынке туризма. В результате система спроса включает области большей социальной значимости, основанные на экспортно-ориентированных местных ресурсах.

Основной целью написания статьи является анализ современного состояния предпринимательства в сфере туризма в современную эпоху, государственной поддержки данной сферы, существующих проблем и путей их преодоления, с целью определения стратегии развития предпринимательства в новые экономические условия, отношения, доля ненефтяного сектора в ВВП за последний период, туризм помимо количества и структурной динамики предприятий, проанализированы ряд важных факторов, пути и возможности формирования и совершенствования конкурентной среды в предпринимательстве, определены стратегические аспекты и обозначены пути дальнейшего развития.

***Ключевые слова:*** *предпринимательство, стратегия, устойчивое развитие, туризм*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.